

### ÜSTÜNLÜYÜMÜZ

- *Zəngin ingilis dilli* ***kitabxana***
- *Geniş* ***beynəlxalq əlaqələr***
- *Yerli və xarici müəllimlərdən ibarət* ***peşəkar heyət***
- *Erasmus+, Mevlana və digər beynəlxalq* ***mübadilə proqramları***
- ***Diplomlarımızın*** *bütün dünyada tanınması və s.*

# *English Opens the Door to the World of Opportunities*

## UNİVERİSTETİMİZDƏ TƏHSİL ALDIĞINIZ MÜDDƏTDƏ SİZİ MARAQLI TƏLƏBƏ HƏYATI GÖZLƏYİR:

- *Yarışlar və bilik müsabiqələri*
- *Xarici mütəxəssislərin apardığı " Conversation Club"*
- *Ekskursiyalar və əyləncəli səfərlər*
- *Yaradıcı insanlarla görüşlər*
- *İngilis dili və ədəbiyyatına dair maraqlı tədbirlər*
- *Müxtəlif ədəbi-bədii gecələr*


AZ1096
Məhsəti küç. 41
Bakı, Azərbaycan
(994 12) 421 10 93 — 230 (daxili)
(994 12) 421 79 16 — 230 (daxili)
english@khazar.org
www.khazar.org


Xəzər Universiteti · Bakı · 1991

KHAZAR UNIVERSITY

**Hər gün, hər saat mükəmməlliyə doğru!**

- **İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI**
- **İNGİLİS DİLİ MÜƏLLİMLİYİ**
- **TƏRCÜMƏ**



## FİLOLOGİYA – İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI

**Jozef Konrad: "Romançı tarixçidir – insan təcrübəsini yazan, şərh edən və qoruyan tarixçi."**

Konrad çox haqlıdır—bədii əsərlər bizi təkcə əyləndirmir, onlar bizi düşündürür – yazıldığı dövrə aparır və dövrün mənəvi-tarixi mənzərəsi ilə tanış edir.

**İngilis ədəbiyyatını oxumaq bilirsinizmi nədir?**

Bir gün Şekspirin Romeo və Cülyettasına qoşulub İtaliyanın Verona şəhərinə səyahət etmək, o biri gün Con Kitsin "Parlaq ulduzu" olmaq, başqa bir gün isə Dikkensin "Milad nəğməsi"ni dinləməkdir.

Siz heç Stivensonun "Dəfinələr adasına" səyahət etmisinizmi?

Bəs Alisaya qoşulub möcüzələr ölkəsinə necə, hələ getməmisiniz ki?

Kim Şerlok Holms ilə bir gecə Londonun dumanlı küçələrində dolaşıb sirli bir macəranın axırına qədər getmək istəməz ki?

Xəzər Universitetinin İngilis Dili və Ədəbiyyatı Departamenti öz peşəkar heyəti ilə sizə bu maraqlı və macəra dolu tələbə həyatında bələdçilik etməyə hər zaman hazırdır.





## İNGİLİS DİLİ MÜƏLLİMLİYİ

Tələbələr təhsil aldıqları dövrdə ingilis dilini yüksək səviyyədə öyrənir, ixtisasa dair müxtəlif nəzəri və praktik fənlər keçir, ingilis dilinin tədrisində istifadə olunan ən son metodlardan xəbərdar olurlar.

Tələbələr Xəzər universitetinin nəzdində fəaliyyət göstərən məşhur "Dünya" məktəbi və digər orta məktəb- lərdə real təhsil mühitində təcrübə keçərək peşəkar müəllim kimi yetişirlər.

Məzunlarımız Azərbaycanda, xarici ölkələrdə fəaliyyət göstərən məktəblərdə, o cümlədən İngilis təmayüllü və beynəlxalq İB məktəblərində işləyə bilirlər.

Bu ixtisası seçənlər pedaqoji fəaliyyətlə yanaşı, tərcümə işi ilə bağlı müxtəlif sahələrdə də işləyə bilirlər.

## TƏRCÜMƏ

- İngilis - Azərbaycan / Azərbaycan - İngilis
- İngilis - Rus / Rus - İngilis

Tərcümə müasir dövrdə ən tələb olunan ixtisaslardan biridir. İngilis dilinin qlobal dilə çevrilməsi və Azərbaycanın dünyaya inteqrasiyası bu ixtisasa olan tələbatı daha da artırmışdır.

Bu ixtisasın tədris proqramı dünyanın qabaqcıl ali məktəblərinin tədris proqramlarına uyğun hazırlanmışdır.

Peşəkar tərcümənin əsasları, Tibbi mətnlərin tərcüməsi, Hüquq və məhkəmə sənədlərinin tərcüməsi, Neft və Qaz sənayesinə dair materialların tərcüməsi, Audio-Vizual tərçümə, Sifahi tərcümə və digər mühüm fənlərin tədris olunması tələbələrə müxtəlif sahələrdə peşəkar tərcüməçi kimi yetişməyə və uyğun sahələrdə işləməyə geniş imkan yaradır.

Tələbələr təhsil aldıqları dövrdə müxtəlif dövlət və xarici şirkətlərdə, forumlarda, konfranslarda, ictimai görüşlərdə və s. tədbirlərdə tərcüməçi kimi təcrübə keçirlər.

